



POVEST

# TALESİZLƏR ŞƏHƏRİ

Rəfiqə SADIQOVA

Oturduğu yerdə onu huş aparmışdı. Gözlərini açıb ətrafına baxdı. Masanın üstünə qoyduğu çörək, boşqab yerində dururdu. Öz-özünə deyinən kimi oldu: "Görəsən yenə haraya baş alıb getdi". Sonra öz sualını özü cavablandırdı: "Yəqin ki, uşaqlara qoşulub çaya gedib". Bu sözləri dili deyirdi, ürəyi isə "görəsən, bu nə vaxt böyüyüb yaşıdlarına qoşulacaq" söyləyirdi. Artıq 10 yaşını haqlamışdı. Amma qıçı boyda uşaqlarla oynayırdı.

O, əllərini yerə təkan verib birtəhər ayağa qalxdı. Nəzərləri divara vurulmuş qara çərçivəli şəklə sataşdı. Qara kostyumlu, buxara papaqlı bir kişi oradan düz Qəmərə baxırdı. "Məni bu Rasimin əlində qoyub aradan çıxdın. Vaxtında nə qədər dedim doxdura aparaq, dedin ki, darıxma, düzələcək. Uşağın qarnını dərmanla doldurmaq istəyirsən?" - dedin. Amma sonra səsi bir qədər mülayimləşdi: "Səndə də günah olmadı. Müxənnətliyi ürəyin elədi" - deyib qapıya üz tutdu.

Günortadan xeyli keçsə də, havadan od yağırdı. Səs-səsə verən cırcıramalar havanın istiliyinə qəribə bir yorucu ahəng qatırdı.

Açılıb-örtülməkdən, ən çoxu da baxımsızlıqdan böyrü üstə əyilən qapını birtəhər aralayıb yola çıxan Qəmər sola-sağa baxsa da, gözünə bir inni-cinni dəymədi. "İstidən hamı içəri girib, bircə bizim bu başı batmışdan başqa", - dedi və tez də "iraq candan", - deyib sözünə düzəliş verdi. Qəflətən yolun sağından bir dəstə uşaq çıxdı. Onların arasında Rasim çox qəribə görünürdü. Bu balaca, 5-6 yaşlı uşaqlarla Rasimin dostluğu tuturdu. Çünki onlar Rasimi cırnatsalar da, tez də könlünü alırdılar. Məsələn, akka oynamağa, gizlin-parça, dava-dava oyununa onu da qatırdılar. Rasim bu oyunlara böyük həvəslə qoşulurdu. Bircə xoşlamadığı say məsələsi olmasaydı. Uşaqlar ona barmaqlarını saydırıb, sonra əllərini ovuşduraraq:

- Neçə oldu, - deyə soruşardılar. Çaşbaş qalan Rasim:

- Nə bilim, qatıb-qarışdırdınız. Bayaq on idi, - deyərdi.

Onun bu sözlərinə qəh-qəhə çəkib gülən dostlarına baxa-baxa qalan Rasim sonra özü də onlara qoşulub gülərdi.

Qəmər oğlunun ona çatmasını gözləyib ehtiyatla qoluna girdi:

- Başına dönüm, acından ölmədinmi? - dedi.

Rasim dostlarına baxıb çiyinlərini çəkdi. Uşaqların bir qədər iri gövdəlisi:

- Gedək yeməyimizi yeyək, axşamüstü dirədöymə oynayarıq, - dedi.

Rasim yavaşca anasının qabağına düşüb həyətə girdi.

- Əllərini yu, gəl yeməyini ye, - deyə Qəmər yastı daş pilləkənə ayağını birtəhər qoyub içəri girdi.

Rasim boşqabdakı şorbanı qaşıqlayır, Qəmər isə ürəyindən qara qanlar axıdaraq balasını izləyirdi. "Kəraminə qurban olum, Allah, nə olardı buna bir az da ağıl-şüur verəydin. Boy-buxun veribsən, amma… "Bir daha ağıl sözünü dilə gətirməyə qorxdu. "Şükür məsləhətinə", - deyib əlini ağrıyan dizinə çəkdi. Həqiqət göz qabağında olsa da, ana hətta ürəyində belə övladının xəstəliyi ilə barışmaq istəmirdi. Ona elə gəlirdi ki, nə vaxtsa Rasim düzələcək, işləyəcək, ev-ailə sahibi olacaqdır. Bir də ananı darıxmağa qoymayan qonum-qonşu, kənd əhli vardı. Hamı Rasimə xüsusi şəfqətlə yanaşır, onun hərəkətlərinə gülüb, lağ eləmirdilər. Təkcə Əsmər qarıdan başqa. O, elə bil ki, Rasimlə göz yağı yemişdi. Hər gün bir bəhanə tapıb Qəmərin üstünə sürəyə gələrdi. Qəmər artıq onun iradlarına cavab verməkdən yorulmuşdu. Yaxşı ki, Növrəstə vardı. O, həm Əsmərin cavabını verər, həm də Qəməri sakitləşdirərdi. Həmişə də sözünü belə bitirirdi: "Bax görəssən, bəlli bir yaşa çatanda Rasim ağıllı-başlı adam kimi ailə də quracaq, işləyəcək də… "Amma nədənsə o yaş gəlib çatmırdı və Qəmər intizarla həmin günü gözləyirdi.

Rasim yeməyini yeyib taxtadan düzəldilmiş taxta uzandı. Bax belə vaxtlarda çox fağırlaşan Rasim Qəmərin ən yaralı yerinə çevrilirdi: "Birdən başıma bir iş gəlsə…" Bunun arxasını düşünmək onun üçün əsl faciə idi.

Qəmər ayağa qalxıb sandığın üstündən götürdüyü örtüklə oğlunun üstünü örtdü. Yavaşca yanağından öpüb "Allah sənə şəfa versin", - deyərək köksünü ötürdü. Bunu ürəyi deyirdi. Şüuru isə ona Rasimin sağalacağına ümid azdır deyə diktə edirdi.

❖ ❖ ❖

Qarabağın qara günləri başlamışdı. Ermənilər tez-tez atəş açır, əhalinin gözünü qorxutmağa çalışırdılar. Sakinlər isə doğma yurd-yuvanı tərk etmək fikrində deyildilər. Güllə dolu kimi yağanda, reaktiv mərmilər ulaya-ulaya düşdüyü yeri yandırıb-yaxanda, top səsləri qulaq pərdəsini dəlib-keçəndə belə əhali dözüm göstərirdi. Kənd camaatından quş tüfəngini belə alıb aparmışdılar. Özünümüdafiə üçün heç nə yox idi. Paytaxtdan gələn xəbərlər də ürəkaçan deyildi. İnsanlar 1992-ci ilin faciəsini yaşayırdılar. Xocalı soyqırımı baş verəndən sonra isə bir vahimə çökdü insanların üzərinə. Gördülər ki, qarşılarındakı təkcə düşmən deyil, qəddar, vəhşi bir yırtıcıdır. Qısa müddətdə yaşanan bu faciə hamıda bir xof yaratmışdı. Üstəlik də atəş səsləri səngimirdi. Kəndin başbilənlərindən biri danışdı ki, ermənilərə Xankəndi ərazisində yerləşən 366-cı alay da yaxından kömək edir. Artıq bütün ümidlər üzülmək üzrə idi.

Günortadan bir az keçmiş kənd şiddətli atəşə tutuldu. Atılan "Qrad" mərmisi Qəmərgilin evinə düşüb onu yerləyeksan etdi. Rasim uşaqlarla çöldə olduğu üçün evdə yalnız anası vardı. Vardı və yox oldu…

Kənd camaatı Rasimgilin həyətinə toplaşmışdılar. Kişilər daş-torpaq yığınının altından Qəmərin sağ çıxacağına ümidli olduqları üçün sürətlə taxta yığınını kənara atıb köməyə tələsirdilər. Hamı həyəcanlı idi. Bircə hayı eşidib gələn Rasim key-key onları müşahidə edirdi. Sanki nə baş verdiyini anlamırdı. Növrəstə ona yaxınlaşıb qucaqladı.

- Bizə gedək, uşaqlar səni gözləyir, - deyib Rasimin qoluna girərək oradan uzaqlaşdırdı. Rasimin yaxın dostu sayılan Əvəz:

- Ə, Rasim, anan öldü? - deyəndə Növrəstə nə qədər qaş-göz eləsə də, Əvəz onu başa düşmədi. Elə bil ki, hər şey bu sözə bənd imiş. Rasim bir şivən qopardı ki, evin içindəkilər də çölə çıxdı. Bu ümidsiz bir insanın həyata üsyanı idi. Yerə oturub dizlərinə, başına döyən Rasimi sakitləşdirmək mümkün deyildi. Səsə gələn Qafar kişi:

- A bala, anan sağ-salamatdır. Təkcə eviniz dağılıb, bir az bizdə qal, anan da xəstəxanadan çıxıb gələndən sonra birləşib sizə bir ev tikərik, - deyib Rasimin qoluna girərək içəri apardı.

- Ay İlduzə, bu gündən Rasim bizdə qalacaq. Ondan muğayat ol, - deyib toza bulaşmış dizlərini silə-silə həyətə çıxdı. İlduzə kənddə hamının sərt adam kimi tanıdığı Qafarın göz yaşlarını gizlətmək üçün çölə çıxdığını hiss etdi.

Daşların arasından tapılan parça-parça olmuş cəsədi ağ parçasının arasına yığıb qəbiristanlığa üz tutdular. Qaranlıq qovuşana kimi onu dəfn edib geri döndülər. Həyətdəki əl-üz yuyanda əlini yuyub üzünə su vuran Qafarın çırtma vursan qanı damardı. Fəlakətin addım-addım yaxınlaşdığı gün kimi aydın idi.

Əlində çay otağa girən İlduzə Qafarın dərin düşüncəyə daldığını görüb:

- Dəfn elədinizmi yazığı, - deyə soruşdu.

- Arvad, yazıq o deyil, Rasimdir. Qəmər canını götürüb getdi. Bu binəva nə olacaq?

- Nə olacaq? Biz nə günün gor qonşusuyuq. Ona da baxmalıyıq, - dedi. - Çöldə qalan deyil ki, elə bilərəm üç deyil, dörd balam var.

- Sağ ol, Musa qızı (Qafar İlduzədən razı qalanda ona atasının adı ilə müraciət edirdi). Doğrudan da kişi qızısan.

Rasim elə bil ki, fağırlaşmışdı. Daha uşaqlarla oynamır, eləcə yerində dərin bir çuxur yaranmış evlərinin kənarında oturub oraya baxırdı. Bəlkə də bir möcüzə gözləyirdi. Möcüzə isə hər zaman baş vermir axı.

Kənddə adından çox çoxbilmiş ayaması ilə tanınan Səfər Rasimə anasının məzarını tanıtdı. O vaxtdan Rasim vaxtının çoxunu anasının məzarı başında keçirirdi.

❖ ❖ ❖

Artıq kənddə yaşamaq qeyri-mümkün idi. Adamlar bir ayaqlarını qaçaraq qoymuşdular. Bir gün isə kəndə hay düşdü. Yük maşınının ayaq qoymaq üçün olan yerində ayaq üstə dayanan bir nəfərin qışqıraraq: "ay camaat, ermənilər gəlir" xəbərdarlığından sonra hamı bir-birinə dəydi. Ayağı yer tutan, minik tapan hər kəs canını götürüb qaçmaq hayında idi. Qafar ailəsini köhnə QAZ-24-ə yığıb kənddən çıxmaq istəsə də, Rasimi tapa bilmirdi. Rasim sanki yağlı əppək olub göyə çəkilmişdi. Rasimdən əlini üzən ailə kənddən çıxdı.

Bu zaman isə Rasim yol kənarındakı qəbiristanlıqda anasının məzarı başında oturmuşdu.

Yaxınlıqdan keçən yük maşınındakı adamlardan biri onu görüb sürücü olan kabinəni döyəclədi. Onsuz da vəziyyətdən gərgin olan sürücü qəzəblə qapını açıb:

- Hə, nə olub? - deyib həmin adama baxdı. - Karsınız, ya kor? Görmürsünüz, yubanmaq ölüm deməkdir!

Həmin şəxs əli ilə Rasimi göstərib:

- O zavallını burada qoyub necə gedək? - dedi. - Heç kimi yoxdur. Necə olsa, özümüzünküdür, təəssübü bizə düşür, - dedi.

Sürücü bu sözü eşidəndə sanki alovun üstünə su tökdülər. Səsini qısıb mərhəmətlə Rasimə baxdı.

Hər şeydən xəbərsiz, yalnız öz dünyasını yaşayan Rasim yazıq-yazıq onlara baxırdı. Sürücü maşından düşüb Rasimə yaxınlaşdı, üzündən öpdü.

- Dur bala, gedək, burada qalmaq qorxuludur, - dedi.

Rasim onun söylədiklərindən bir şey anlamasa da, sürücünün yanına düşüb maşına yaxınlaşdı. Yük yerindən ona uzanmış əllərin birindən yapışıb yuxarı qalxdı.

İnsanlar nə qədər şəfqətli olsalar da, hamının başı özünə qarışmışdı. Haraya getdiklərini, orada onları nə gözlədiyini bilmirdilər.

❖ ❖ ❖

Maşın gəlib aran rayonlarının kəndlərindən birində dayandı. Kənd camaatı maraqla gələnləri izləyirdilər. Onları evə dəvət edənlər də oldu. Lakin gələnlər çox, ehtiyac böyük, yer isə məhdud idi. Pəyədə, əl damında yer tapanlar sevinirdilər. Ən azından ona görə ki, atəş səsləri eşidilmirdi. Daha uşaqlar analarına "yorğanı üstümə 2 dənə sal ki, güllə keçməsin" - demirdilər.

Bu qaç-qovun içində hamı sanki Rasimi unutmuşdu. Rasim xəndəyin kənarında oturub qalmışdı. Nə "gəl bala" deyən vardı, nə də qayğısına qalan.

Yavaş-yavaş qaranlıq düşürdü. Deyəsən gələnlərin çoxu yerləşib qurtarmışdı. Heç kimin yadına Rasim düşmürdü. Rasim isə soyuqdan büzüşərək xəndəyin kənarına sığınmışdı. Həm ac, həm də susuz idi. Pəncərədən görünən işıqlar onun üçün əlçatmaz idi. Axı o, lap adam kimi istəməyi də bacarmırdı. O qabiliyyəti yox idi. Təkcə "ver" sözünü bilirdi.

Aclıq və soyuq güc gəldi. Ayağa qalxıb yaxınlıqdakı həyətə girdi. Ətrafına boylanıb qapını döymək istəyirdi ki, içəridən çıxan bir kişi onu görüb qəzəblə:

- Ə, buralarda nə sülənirsən? - deyib sinəsindən itələdi. Deyəsən oğru sanmışdı. Aclıqdan taqətdən düşmüş Rasim səndələyib yerə yıxıldı. Qolunu nəsə yaraladığı üçün qan axmağa başladı. Köynəyinin ətəyini yarasına basıb oradan uzaqlaşdı. Onu itələyən kişi Rasimin arxasınca qapını bağlayıb deyinə-deyinə evə girdi.

Rasim ağlamırdı, amma gözündən süzülən yaş köynəyinin yaxasını isladırdı. Buralar ona tanış olmadığı üçün bir az irəliləyib uca ağacın altında oturdu. Kürəyini ağacın gövdəsinə söykədiyi üçün canı bir qədər isindi.

Səhər açılar-açılmaz kənd nümayəndəsi qaçqınları siyahıya alıb çadır şəhərciyinə aparılacaqlarını bəyan etdi.

Bir anda sahib olduğun hər şeyi itirmək, babadan, atadan qalma ev-eşiyini, varını-dövlətini arxada qoyub qaçmağa məcbur olmaq, insanların ümidinin tamamilə qırılması deməkdir. Onlar yatağın, isti çayın, geyimin, ən başlıcası daldalanmaqdan ötrü bir komanın belə həsrətində idilər.

Günortaya yaxın kəndə bir köhnə, oturacaqları nimdaş avtobus gəldi. Həmin avtobus qaçqınları çadır şəhərciyinə aparmalı idi. Axşamdan ac-susuz, yorğun olan Rasim də gəlib oraya çıxmışdı. Qolundan axan qan qaysaqlanıb part-part olmuşdu. Danışmağa taqəti belə yox idi. Kimsə, yerli sakinlərdən biri onu sinəsindən itələyib, "geri dur" - dedi. Fəqət gələnlərdən biri onu görüb:

- O da bizimlədir - deyib, qolundan yapışaraq avtobusun yanına gətirdi. Minik başlayanda Rasim də onlara qoşulub avtobusa qalxdı. Lakin oturmağa yer olmadığı üçün ayaq üstə qaldı. Taqəti olmadığından danışa bilmirdi. Həm də anası, qonum-qonşusu həmişə onun qayğısına qaldığı üçün Rasim istəyini bildirməyi bacarmırdı. Ürəyindən keçən hər şeyə həsrətlə yazıq-yazıq baxırdı.

Yol nahamar idi. Tez-tez çalaya düşən avtobusun sərnişinləri narahatlıqdan çox gedəcəkləri yer barədə düşünürdülər. Haraya və necə…

Təkərin üstündəki hündür yerdə əyləşən Südabənin gözü Rasimi aldı. Rasim əli ilə başının üstündəki tutacaqdan bərk-bərk yapışsa da, zorla ayaq üstə dayandığı hiss olunurdu. Südabə başqa kənddə yaşasa da, Rasimi də, Qəməri də yaxşı tanıyırdı. Südabə:

- Rasim, bala, bu sənsən - deyib, əlini ona doğru uzatdı.

Rasim bu mehriban səsdən sanki bir az canlandı, lakin onu tanımadı.

Südabə yanında əyləşən qız uşağına:

- Bir az o yana çəkil, - deyib yanında Rasimə yer elədi. Başqa vaxt olsaydı, bəlkə də Rasim bu çağırışa etina eləməzdi. Ancaq aclıq, susuzluq, yorğunluq onu əldən salmışdı. Rasim səndələyə-səndələyə keçib Südabənin yanında əyləşdi. Südabə onun görkəmindən hər şeyi anlamışdı. Gözlərinə pərdə çəkən yaşı Rasim görməsin deyə zorla saxlayırdı.

- Bəs sən harada idin?

Rasim məlul-məlul onun üzünə baxıb:

- Heç harda, - dedi.

- Necə yəni heç harda?

- Yerim olmadı, arxın kənarında qaldım.

Südabə əlini şappıltı ilə dizinə vurdu.

- Qəmərin yox gününə, bəs biz harda ölmüşdük ki, sən yersiz qalmısan.

Ölmüşük sözü Rasimə elə dəhşətli gəldi ki, diksinərək həyəcanla:

- Nə olar, ölmə, ölmək pisdir - dedi.

Südabə artıq göz yaşlarına hakim ola bilmədi. Rasimin başını sinəsinə sıxıb hönkürdü.

Avtobusdakılar məsələdən agah olmuşdular. Hamı peşman-peşman Rasimə baxırdı.

Düzün düzəngahında yan-yana düzülmüş çadırlar yeni sahiblərini gözləyirdi. Heç vaxt dilimizdə yer almayan bir termin yaranmışdı. Adına da Çadır şəhəri deyilirdi. Həyatın ironiyası! Çadır özü nədir ki, onun şəhəri nə ola. Lakin dünya kar və kor olduğu üçün Çadır şəhəri sözü, çadıra sığınan böyük bir insan ordusu yaranmışdı. Taleyi gətirməyən insanlar…

Gələnlərin elə bil yükü olmadığı üçün avtobus tez bir zamanda boşaldı və arxasınca qara bir tüstü buraxaraq oradan uzaqlaşdı. Hamı narahat halda bir-birinə baxırdı. Çadırların arasından çıxan əli dəftərli, kök kişi onlara yaxınlaşıb:

- Tələsməyin, indi hamınızı yerləşdirəcəyik, - deyərək uzaqlaşdı. Bayaqdan uzaq yol gələn insanlar çadırın kölgəsinə çəkilib torpağın üstündə oturdular. Gözləməkdən başqa çarə yox idi. Boğçasında, çantasında yeməyi, çörəyi olanlar süfrə açdılar. Kənarda duranları səsləyən Südabə:

- Burada hələlik heç birimiz ev sahibi deyilik. Yaxın gəlin, Allah verəndən bir tikə kəsin. Nəyimiz varsa, ona qane olmaqdan başqa çarə yoxdur, - dedi.

Yurd-yuvasını tərk etməyə, canlarını götürüb qaçmağa məhkum olmuş insanların boğazından tikə keçməsə də, ayaqda qala bilmək xatirinə salınan süfrənin başına yığışdılar.

Südabə yanında oturan Rasimi şəfqətlə süzüb arasına pendir qoyduğu lavaşı ona uzatdı. Rasim dürməyi alıb elə acgözlüklə yedi ki, Südabə ona baxa-baxa qaldı. Ürəyində: - "Qəmərin yox gününə, gör balası nə hala qalıb" - deyə düşündü.

Südabə yemək üçün əlində tutduğu dürməyi Rasimə uzatdı. Rasim onu da iştahla yeyib Südabəyə baxdı.

- Doydunmu? - deyə Südabə soruşdu.

Rasim bir söz deməyib başını aşağı saldı. Bəlli ki, doymamışdı. Lakin bunu söyləyə bilmirdi. Süfrənin ayaq tərəfində oturan qarabəniz kişi əlində tutduğu boşqabı və çörəyi yanında oturan yeniyetməyə uzadıb: "Ayağa qalx, bunu o oğlana apar ver", - dedi. Həmin oğlan Rasimə yaxınlaşıb boşqabı ona uzatdı. Rasim key-key boşqaba deyil, oğlana baxırdı.

- Bala, bax əmi bunu sənə pay göndərib, al ye, - dedi Südabə.

Yalnız bundan sonra Rasim boşqabı alıb içindəki ətin suyuna çörəyini batıraraq ağzına qoydu.

Rasim danışmasa da, artıq hamı onu vəziyyətindən hali omuşdu. Südabənin Rasim eşitməsin deyə pıçıltı ilə yanındakılara söylədiyi sözlər hamını mütəəssir etmişdi. İndi hamı Rasimə şəfqətlə baxırdı. Onun qayğısına qalmağa çalışırdı. Sanki insanlar öz faciələrini unutmuşdular. Yiyəsiz qalan, xəstə bir uşaq hər kəsin diqqət mərkəzinə çevrilmişdi.

Bayaqkı əli dəftərli kök kişi gəlib çıxdı. Məlum oldu ki, şəhərcikdə elə gələn ailələrin sayı qədər də boş çadır var. Bu xəbər hamının üzərinə çökən ağırlığı dəf elədi.

Çadırların içərisində az sayda yatacaq, bir də gündəlik tələbat üçün zəruri əşya vardı. Hamının başı ona göstərilən çadırda yerləşməyə qarışmışdı. Təkcə Rasim bir kənara çəkilib olanları seyr edirdi. Onun nə çadır evi, nə də həmin çadırı nəfəsi ilə isidəcək anası vardı. Beləcə onu yuxu tutdu. Başını torpağa qoyub uzandı. Nə qədər yatdığı yadında deyil, başına çəkilən tumarın təmasından gözünü açanda Südabəni gördü.

- Dur bala, dur evimizə gedək, - dedi Südabə.

Bu təmasdanmı, anasının onu əzizləyərkən "balamdır, balam" sözünün həsrətindənmi Rasim Südabəni qucaqladı. Hönkürməsə də, gözündən axan yaş damcıları sinəsində naxışlandı.

Südabə:

- Qorxma, səni kimsəyə verməərəm, mənim balam olacaqsan, - deyib Rasimin gözünün yaşını sildi.

❖ ❖ ❖

İnsanların taleyi zamanın ümidinə buraxılmışdı. Buraya yerləşənə qədər çoxunun öz təsərrüfatı, malı-heyvanı vardı. Əkini-biçini vardı. Bu insanlar səhər erkəndən durub işləməyə, daşı-daş üstünə qoymağa alışıq idilər. İndi isə…

Fanerkadan yığılmış calaq qapılar şoran torpağa açılırdı. Təkcə yovşanın, ulğunun bitdiyi torpağa. Qocaman ağacların sərinliyində dincələn insanlar indi çadırların saldığı cılız kölgələrə sığınırdılar. Günün istisinə birtəhər dözmək olardı. Qarşıdan soyuq havalar gəlirdi. Divarı nazik berezent, döşəməsi şoran torpaq olan bu çadırlar insanlara yaxşı heç nə vəd etmirdi. Lakin hamı dözürdü. Çünki geri qayıdacaqlarına, yurd-yuvalarına yenidən sahib olacaqlarına ümidləri böyük idi.

Bu çadırların ən böyük cəfakeşi analar - qadınlar, xəcalətli qalanları isə kişilər idi. Yağış yağanda torpaq canına çəkmədiyi üçün gölməçələr yaranırdı. Hətta bu gölməçələr əl-qol atıb çadırların içərisinə qədər uzana bilirdilər. Səhər olanda islanmış mir-mitilini qurutmağa yer axtaran qadınların zülmünü səhər tezdən çadırdan çıxıb çörək pulu qazanmaq üçün iş axtaran pərişan simalı kişilərin yazıqlaşan görkəmi tamamlayırdı. Humanitar təşkilatların gətirdiyi yardımların paylanması isə əsl mərəkə olurdu. Dərdləri, əziyyətləri, yaşayışları çəkilməz olan, bir-birinə kömək etməyə çalışan bu insanlar yardım gələrkən nədənsə elə bil ki, yadlaşırdılar. Hər kəs qabağa düşməyə, gətiriləni daha tez əldə etməyə can atırdı. Gecikənlər, zəiflik göstərənlər yardım alanlara həsrətlə baxardılar. Lakin bir müddət sonra yardım əldə edən qaçqın yazıq-yazıq baxana kömək əlini uzatmağa çalışırdı.

Çadır şəhər olandan sonra onun içindəkilər xasiyyətləri tutmasa belə bir ailəyə çevrilmişdilər; dəliləri, ağıllıları, xəstələri, sağlamları ilə birlikdə. Buranın yeganə informasiya mənbəyi üç-dörd dənə sınıq-salxaq stolu, stulu olan çayxanalar idi. Kişilər buraya həm də vaxtlarını öldürməyə gəlirdilər. İş axtaran da, tapan da birinci çayxanaya baş çəkirdi. Cəbhədən gələn xəbərləri öyrənmək üçün mənbə sayılan çayxanada isə hər kəs olanı deyil, onun ətrafında baş verənləri eşitməyə daha çox meyilli idilər.

Həqiqət torpaqların bir-bir itirilməsini söyləsə də, insan oğlu bu xəbəri özünə yaxın buraxmaq istəmirdi. Çünki insanda son üzülən həmişə ümid olur. Ümidə sığınmayan xəbər isə acı və dözülməz olurdu.

Südabə və Rasimin sığındığı çadırdan bir qədər aralı hamının doxdur dediyi və kimsə ilə kəlmə verib-almayan Muradın çadırı yerləşirdi. İnsanlar ona qarayayovuşmaz deyirdilər. Bu qəribə adam hər gün bəlli bir vaxtda çadırlardan təxminən 2-3 kilometr aralıda yerləşən təpənin üstünə qalxar, orada saatlarla oturub yenə də gəldiyi cığırla çadırına qayıdardı. Yardım gələndə o biriləri kimi növbə davası etməzdi. Çatanda alardı, çatmayanda dinməzcə üzünü çevirib gedərdi.

Murad doxdur hər gün həmin cığırla keçəndə Rasimin torpağın üstündə hərəkətsiz oturub bir nöqtəyə baxdığını müşahidə etmişdi. Onun üzü yalnız Südabə yanında olanda təbəssüm görürdü. Südabə Rasimin ən xoş duyğularına məlhəm ola bilirdi.

Murad doxdur istər-istəməz çadırın önündən keçəndə diqqəti Rasimə dikilirdi. Üzündəki o sərt ifadə yumşalır, bəzən isə gözləri yaşarırdı. Bir gün isə marağı üstün gəldi. Onun kiçik oğluna oxşayan nədən belə hərəkətsiz, qaradinməz idi. Onun yaşıdları bütün günü burdan vurub ordan çıxırdı. Bu isə...

Onun iti nəzərlərindən Rasimin Südabəyə çəkingən nəzərlərlə baxdığı da yayınmamışdı. Bir gün getdiyi yolun kənarında asta-asta yeriyən Rasimi görən Murad doxdur arxadan yaxınlaşaraq əlini onun çiyninə toxundurdu. Bu təmasdan diksinən Rasim geri çevriləndə Murad doxdurla oğlanın baxışları toqquşdu. Rasimin gözünün içindəki xalı görən Murad özü də hiss etmədən inildədi. Murad doxdurun qaməti sanki birdən kiçildi. O, gözündən axan yaşı belə silməyə səy göstərmirdi. Eləcə Rasimi süzürdü. Heç nədən xəbəri olmayan Rasim key-key ona baxırdı. Murad doxdur onu qucaqlayıb gözlərindən öpdü. "Gözünə, baxanlarına qurban" sözünü bərkdən söylədiyinin fərqində olmayan Murad doxdur Rasimə baxa-baxa qalmışdı. Qarşısındakı sanki onun gözündə xalı olan oğlu İlqar idi.

Murad doxdurun özünü ələ alması bir qədər çəkdi.

- Bala, adın nədir?

- Rasim.

- Çadırda ananla yaşayırsan?

Rasim onun sözünü ağzında qoydu.

- Anam öldü, anam yoxdu. Anamı istəyirəm…

Bu rabitəsiz sözlərdən bir şey anlamayan Murad doxdur peşəsindən gələn fəhmlə onun vəziyyətini anladı. Artıq sual vermədi. Onsuz da cavabı yox idi.

- Hara gedirsən, bala?

Bu sualdan özü də diksindi. Qoşa balası cəbhədə şəhid olandan sonra balasız qalmışdı Murad doxdur. Onun hər iki oğlu özünümüdafiə batalyonunun döyüşçüləri idi. Əllərində quş tüfəngindən başqa silahı olmayan bu gənclər qeyrətlərinə və cəsarətlərinə söykənib azğın, köməyi böyük yerdən gələn erməninin qarşısını kəsə biləcəklərini düşünürdülər. Nəinki döyüşmək üçün mükəmməl silah, heç nizami ordu belə yox idi. Qeyri-bərabər döyüşdə əvvəl kiçik, sonra isə böyük oğlu şəhid oldu. Hər iki oğlunun cəsədini güllə yağışı altından zorla çıxaran Murad doxdur onları şəhidlər xiyabanı adlandırdıqları yerdə torpağa tapşırdı. Bəli, artıq hər rayonun, kəndin şəhidlər xiyabanı yaranmışdı. İtkilər nə qədər böyük olsa da, nəticə bir o qədər acınacaqlıydı. Yaşayış məntəqələri bir-birilərinin ardınca düşmənin əlinə keçirdi. Lakin insanlar ruhdan düşmür, od-ocaqlarını əllərində silah qorumağa çalışırdılar.

Həyatda kimsəyə həsəd aparmağın nə olduğunu bilməyən Murad doxdur ömürgün yoldaşı Pakizəyə həsəd aparırdı. Pakizə övlad itkisinə dözə bilmədi. Özü bəlkə də dözərdi, ürəyi dözmədi. Onu şəhid oğlanlarının yanında torpağa tapşıran Murad doxdurun təsəllisi hər gün o üç məzarı ziyarət etmək idi. Lakin bundan da məhrum oldu. Qaçqınlıq başladı və o, digər çadır şəhərciyinə deyil, elinə-obasına yaxın olan şəhərciyə yerləşdi. Çox bacarıqlı həkim kimi ona hər yerdə iş və ev tapılardı. Lakin Murad doxdur geri dönəcəklərinə elə inanırdı ki, ona elə gəlirdi uzağa getsə, geri dönmək məqamında gecikə bilər. Üç əzizi onun yolunun intizarını çəkirdi axı. O üç məzarla edəcəyi söhbəti, etirafı, gileyi hafizəsində ipə-sapa düzmüşdü.

Geriyə isə yol görünmürdü. Sanki unudulmuşdu o mövzu. Atəşkəs deyilən o haramzadə hər gün onlarla insanın canını alsa da, heç eyninə deyildi. Böyük-böyük himayədarlarına sığınaraq ermənilərin özgə torpaqlarında şellənməsinə şərait yaratmışdı.

Murad doxdur bu gün adətinə xilaf çıxdı. O, tanış təpəyə getməyi təxirə saldı. Onsuz da hava dumanlı kimi idi. Uzağı seyr etmək qeyri-mümkün sayılırdı.

O, yol üstündə dayanan Rasimin qolundan şəfqətlə yapışıb geri döndü. Bu, oğluna bənzəyən yeniyetməni uca Yaradan sanki bir təskinlik üçün ona yetirmişdi. Axı milyonda bir adamın gözünün içində xal ola bilərdi.

Onların yaxınlaşdığını görən Südabə bir az irəli yeridi. Görəsən… Onun üzündəki ifadəni dərhal sezən Murad doxdur:

- Narahat olma, hər şey qaydasındadır, - dedi.

Südabə tez çadıra girib biri plastmas, digəri isə kobud taxta parçalarından hazırlanmış taburetkaları çadırın qənşərinə qoydu. Çadırın içi qaranlıq və nəm olduğu üçün onları içəriyə dəvət etməyə utandı.

Murad doxdur gəlib göstərilən yerdə əyləşdi. Südabə Rasimin qolundan yapışıb o biri taburetkada oturmasına yardım etdi.

Südabə nə baş verdiyindən xəbərsiz olduğu üçün təşvişlə onlara baxırdı. Hamının hörmət etdiyi Murad doxdurun o sərt simasının yerində qəmgin bir çöhrə vardı. Elə bil ki, gözünü Rasimdən çəkə bilmirdi. Gözləri dopdolu idi. Lakin yaş nədənsə aşağıya doğru yuvarlanmırdı. Yad qonaq kimi yerini dəyişməyə çəkinirdi. Axı bu gözlər çoxdan gözyaşını itirmişdi. Qurumuşdu elə bil. Bəlkə heç yerli-dibli olmayıb? Yox axı, Pakizəni torpağa tapşıranda məzarının üstünə su əvəzinə gözyaşlarını axıdan onun özü idi. Dərdin böyüklüyü göz bulağını qurutmuşdu sanki. Bu gün isə… Bu gün oğlu İlqarı elə bil ki, yenidən tapmışdı. Nə ürəyi, nə gözü boşala bilmirdi. Sanki dilinə də buxov vurulmuşdu. Danışsa, dinsə, o sehrin dağılacağından, lap elə qaçacağından qorxurdu.

Bayaqdan onları müşahidə edən Südabə:

- Nə olub axı, Rasim neyləyib? - deyə təşvişlə soruşdu.

Rasimdən səs çıxmadı. Yalnız özünə qayıdan Murad doxdur:

- Sizinlə danışmaq olarmı? - deyib həyəcanla Südabəyə baxdı.

- Əlbəttə olar.

- Siz…

Südabə söhbətin nədən gedəcəyini anladığı üçün Rasimə:

- Başına dönüm, masanın üstünə yeməyini qoymuşam. Qalx ayağa, get ye, acsan axı, - dedi.

Rasim dinməz-söyləməz ayağa qalxıb çadıra keçdi. Eşitdikləri Murad doxduru sarsıtmışdı.

- Əgər icazə versəniz mən Rasimi müayinə edərdim. Onun müalicəyə ehtiyacı var.

- Ay doxdur, icazə nədir. Belə başına dönərəm. Təki Rasim sağalsın.

Bu söhbətdən bir neçə gün sonra Südabəgilin də, Murad doxdurun da fanerka qapısının cəftəsinə kiçik bir qıfıl vuruldu. Onlar ana yola qədər gedən köhnə bir "Jiquli"yə əyləşib yola düzəldilər. Əllərində yükləri olmasa da, ürəkləri bir filin daşıya biləcəyi qədər yüklə dolu idi. Murad doxdur bu işin uzun çəkəcəyini bilsə də, Südabə ruhdan düşməsin deyə ürəyindən keçəni dilinə gətirmirdi.

*(Ardı var)*